**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN VƏ ABŞ BEYNƏLXALQ TERRORİZMƏ QARŞI MÜBARİZƏDƏ

İxtisas: **5502.01 – Ümumi tarix**

Elm sahəsi: **Tarix**

İddiaçi: **Raminə Məmməd qızı Hüseynli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix və tarixin tədrisin texnologiyası" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər :** AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix üzrə fəlsəfə doktoru
**Bircə Əfqan qızı Bayramova**

tarix üzrə fəlsəfə doktoru
**Nigar Nizami qızı Əsgərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

**İkirəm Kərim oğlu Ağasiyev**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Terrorizm və onun nəticələri bəşəriyyətin bu günü və gələcəyi üçün ən böyük təhdidlərdən biridir. Tarixin müxtəlif dövrlərindən terrorizm müxtəlif formalarda təzahür etmiş, XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər terrorizm daha çox lokal səviyyədə məhdudlaşmışdı. XX əsrin əvvəllərindən başlayaraq isə terrorizm qlobal təhlükəyə çevrilməyə başlamış, bir sıra terror təşkilatları artıq beynəlxalq şəbəkələr halında formalaşdırmağa nail olmuşlar. XXI əsrdə terrorizm qlobal xarakter alaraq bəşəriyyət üçün ən ciddi təhlükəyə çevrilmişdir. Beləliklə, əvvəllər terrorizm sırf lokal, ən pis halda isə - regional xarakter daşıyırdısa, sonralar o, qlobal təhlükəyə çevrildi.

XIX əsrin sonlarından etibarən çar Rusiyasının köməyi ilə Qafqazın müxtəlif ərazilərində məskunlaşdırılan, Qafqaz regionunda xaos və qarışıqlıq yaratmağa və mənfur niyyətlərini həyata keçirməyə çalışmış ermənilər tərəfindən Azərbaycan xalqı da davamlı olaraq ağır terror qırğınlarına məruz qalmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra erməni terror təşkilatları Azərbaycanın dövlət və siyasi xadimlərinə qarşı müxtəlif terror aktları həyata keçirmiş, sovet dövründə də bu cinayəti müxtəlif vasitələrlə davam etdirmişlər. Müstəqilliyini bərpa etdikdən sonra özünün xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun olaraq qurmağa başlayan Azərbaycan Respublikası ümumdünya erməni terror şəbəkəsinin davamlı təhdid və hücumlarına məruz qalmışdır. 1988-1994-cü illərdə Azərbaycan Respublikasının ərazilərini işğal edən Ermənistan dövləti terror təşkilatlarını təcavüz aləti kimi istifadə etmiş, terroru dövlət siyasətinə çevirmişdir.

Azərbaycan dövlətinin isə terrorçuluğun bütün forma və təzahürlərinə münasibəti birmənalı olmuşdur və bu münasibətin mahiyyətini açıqlayan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev demişdir: *"Azərbaycan həmişə terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyir, terrorçuluğa qarşı mübarizə aparır və bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazırdır. Müasir dövrdə terrorizm bütün ölkələri hədəfə alaraq qlobal problemə çevrilmişdir. Terrorizm təhlükəsinin*

*tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər"*[1].

Müstəqilliyin bərpasından sonrakı dövrdə dünyanın bütün sivil dövlətləri ilə beynəlxalq hüququn prinsipləri əsasında əməkdaşlıq niyyətlərini nümayiş etdirən, ABŞ, Rusiya və Avropa dövlətləri başda olmaqla ən müxtəlif dövlətlərə erməni təcavüzünün və terrorunun qarşısının alınması üçün çağırışlar edən Azərbaycan Respublikası 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror aktından sonra beynəlxalq terrorizmə qarşı başladılan antiterror əməliyyatlarında ABŞ-a tam dəstəyini ifadə edən ilk dövlətlərdən biri olmuşdur. Məhz bu konteksdə beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikası ABŞ ilə birgə hərəkət etməyi özünün beynəlxalq siyasətdəki ən ümdə vəzifələrindən biri hesab etmişdir. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *"Beynəlxalq terrorizmə qarşı ABŞ-ın qətiyyətlə başladığı mübarizənin ilk günlərindən Azərbaycan birincilər sırasında antiterror koalisiyasına qoşularaq bəşəriyyətin məhvi üçün real təhlükə doğuran bu bəlanın aradan qaldırılması işinə öz töhfəsini verməyə çalışmışdır"*[2]. Belə ki, Azərbaycan Respublikası da uzun illər transmilli erməni terror təhlükəsi ilə üz-üzə dayanmış,onunla mübarizə aparmış və bu gün də bu mübarizə davam etməkdədir.

Buna görə də Azərbaycan Respublikası və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə birgə fəaliyyətinin tarixinin öyrənilməsi həm ümumi, həm də milli tarixşünaslıq baxımından mühüm əhəmiyyət kəsb edir. İlk növbədə ona görə ki, bu əməkdaşlıq Azərbaycan Respublikasının terrorçuluğa və onun bütün formalarına qarşı qətiyyətli mübarizəsinin təzahürüdür. Digər tərəfdən, terrora qarşı mübarizənin Azərbaycan Respublikası ilə ABŞ arasında

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.36. – 2011. – 512 s., – s.35.

[2] Əliyev, İ. İnkişaf məqsədimizdir: [87 cilddə] / İ.Əliyev. – Bakı: Azərnəşr, – c.1. – 2008. – 424 s., – s.32.

münasibətlərin xüsusi istiqaməti kimi öyrənilməsi tarixi baxımdan da aktuallıq kəsb edir. Mövzunun tədqiq olunmasının əhəmiyyətini artıran digər bir məqam isə onun beynəlxalq terrorizmə qarşı mübarizədə dövlətlərarası birgə fəaliyyət üçün nümunəvi xarakter daşıması və presedent yaratmasıdır.

Müasir dövrdə terrorizmin, onun müxtəlif formalarının daha geniş yayılması üçün heç bir sərhəd və məhdudiyyətin olmaması bu təhlükəyə qarşı beynəlxalq miqyaslı mübarizənin təşkil olunmasını tələb edir. Başqa sözlə hazırda terrorizm ayrılıqda götürülmüş bir ölkənin, hətta regionun sərhədlərindən çox kənara çıxmış, artıq etnosid, soyqırım (genosid), faşizm kimi insanlıq əleyhinə yönəlmiş və hüquqazidd fəaliyyət kimi beynəlxalq və polietnik xarakter almışdır. Bir ölkədə və ya regionda yaradılmış terror təşkilatlarının fəaliyyəti artıq təkcə yarandığı ölkələrin deyil, bir çox dövlətlərin təhlükəsizliyinə təhdid yaradır, qlobal siyasi, maliyyə-iqtisadi və mənəvi-ideoloji təlatümlərə və itkilərə səbəb olur, xalqları psixoloji təzyiq altında saxlayır, günahsız insanların həyatına son qoyur. Bu baxımdan, mövzunun tədqiqi və tədqiqatda əldə edilən nəticələr təkcə Azərbaycan tarixşünaslığı üçün deyil, eyni zamanda ABŞ və bir sıra terrorizdən əziyyət çəkən dövlətlərin tarixşünaslığı üçün də mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işində əsas diqqət transmilli terrorizm və onun strukturlarının ABŞ və Azərbaycan Respublikasına göstərdiyi təsirlərə yönəldilmişdir. ABŞ-a münasibətdə bu fəaliyyətin əsas icraçıları "Taliban", "Əl-Qaidə", İŞİD və bir sıra digər terror təşkilatlarıdırsa, Azərbaycan Respublikasına qarşı yönələn cinayətkar terror fəaliyyətinin əsas icraçıları isə erməni terror təşkilatlarıdır.

İlk baxışdan bu təşkilatlar fərqli mövqedə görünsələr də, bir sıra tədqiqatçılar tərəfindən "erməni "xristian" terror dövləti"[3] kimi xarakterizə olunan Ermənistan Respublikası ilə xaricdəki erməni terror təşkilatları və ABŞ-a qarşı terror fəaliyyətləri həyata keçirmiş fundamentalist terror təşkilatları arasında sıx gizli əlaqələr vardır.

---

[3] Weems, S.A. Armenia secrets of a "christian" terrorist state / The Armenian Great Deception Series. – Volume 1, – St. John Press, – 2002. – p. 72-75.

Məhz bu cür əlaqələrin tədqiqi və öyrənilməsi tədqiqat işinin aktuallığını şərtləndirən amillərdəndir.

Beynəlxalq terrorizmin və onun hüquqa zidd fəaliyyətinin öyrənilməsi həmçinin aşağıdakı səbəblərə görə də zəruridir və mühüm aktuallıq kəsb edir:

- beynəlxalq terrorizmin meydana gəlməsinin və yayılmasının səbəblərinin müəyyən edilməsi baxımından;
- əhalinin bəzi radikal qrupları üçün onun "cazibədarlığının" nədən ibarət olmasının aydınlaşdırılması baxımından;
- terror təşkilatlarının öz tərəfdaşlarını nisbətən asan tapmasının səbəblərinin öyrənilməsi baxımından;
- terrorizmin təbiətini anlamaq, istər onunla mübarizənin, istərsə də bu bəlanın kökünün kəsilməsinin çətinliklərinin nədən ibarət olduğunu aydınlaşdırmaq baxımından.

Tədqiqatın xronoloji çərçivəsinə uyğun olaraq 1991-ci ildən 2017-ci ilə qədər olan dövr ərzində baş verən mühüm hadisələr problemin aktuallığını şərtləndirir. Bu, həm dünya, həm ABŞ, həm də Azərbaycan tarixində çox əhəmiyyətli bir dövrdür. Belə ki, 1991-ci ildə SSRİ-nin süqutu ilə "soyuq müharibə" başa çatmış, beynəlxalq sistemdə köklü dəyişikliklər dövrü başlamış və ikiqütblü dünya sistemi aradan qalxmışdır. ABŞ bu mərhələdə şəriksiz dünya liderliyini möhkəmləndirməyə çalışmışdır. Dissertasiya işində xronoloji baxımdan müəyyən edilmiş tarixi dövrdə Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa etmiş, 1993-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıtmış, Heydər Əliyevin müəyyən etdiyi strategiyanın uğurla reallaşdırılması nəticəsində təkcə Azərbaycanın siyasi, sosial-iqtisadi dirçəlişi təmin edilməmiş, həmçinin onun beynəlxalq birliyin fəal üzvləri arasında ilk sıralarda qərarlaşmasına zəmin yaranmışdır.

2003-cü ildən 2017-ci ilə qədərki mərhələdə isə Azərbaycan dövlətinin Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyası prezident İlham Əliyev tərəfindən dəyişən dünyanın tələblərinə uyğun olaraq uğurla inkişaf etdirilmişdir. Azərbaycan beynəlxalq terrorçuluğa qarşı mübarizədə özünün qətiyyətli və barışmaz mövqeyini dəfələrlə açıq şəkildə ortaya qoymuşdur. Təsadüfi deyil ki, bu dövr Azərbaycan Respublikasının iqtisadi inkişafının bütün

sahələrində yüksək nailiyyətlər əldə etməsi ilə yanaşı, eyni zamanda dünya miqyasında transmilli terrorizmlə mübarizədə ABŞ-ın tərəfdaşı qismində tanındığı bir dövr kimi yadda qalmışdır.

Müasir dövrdə beynəlxalq terrorizmin qlobal təhlükəyə çevrilməsi bu mövzunun müxtəlif aspektlərinin öyrənilməsinə tədqiqatçıların və tədqiqat mərkəzlərinin marağını artırmışdır. Azərbaycan Respublikası və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə birgə fəaliyyəti ilə bağlı məsələlərə bir çox ölkə müəlliflərinin əsərlərində qarşıya qoyulan tədqiqat məqsədlərindən asılı olaraq müxtəlif prizmalardan toxunulmuşdur.

Azərbaycanlı müəlliflərdən H.A.Paşayevin, Y.M.Mahmudovun, R.Ə.Mehdiyevin, A.İ.Həsənovun, Ə.M.Həsənovun, R.Sevdimalıyevin, M.C.Qasımlının, E.İ.Əhmədovun, T.Q.Köçərlinin, A.H.Abbasbəylinin, K.F.Ruintənin, R.Hüseynzadənin, R.Mustafayevin və başqalarının əsərlərində mövzunun müxtəlif aspektlərinə toxunulmuşdur.

Azərbaycan Respublikasının ABŞ-dakı ilk səfiri H.A.Paşayevin "ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi" adlı məqaləsində ABŞ – Azərbaycan münasibətlərində terrorizmə qarşı birgə mübarizə məsələlərinə də diqqət yetirilmişdir[4]. Onun göstərilən əsərində Azərbaycan haqqında ABŞ Konqresinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyası qarşısındakı bəyanatları, ABŞ Konqresinə və Prezident Administrasiyasına məktubları və s. kimi məsələlərlə bağlı əksini tapmış faktlar antiterror müzakirələrinin daha aydın mənzərəsini yaratmaq imkanı verir.

Ə.M.Həsənov tədqiqatlarında Azərbaycan Respublikasının ABŞ ilə terrorizmə qarşı birgə mübarizəsinin mərhələlərini fərqləndirilmiş, problemin həm də nəzəri tərəflərinin üzə çıxarılması üçün əhəmiyyətli fikirlər irəli sürülmüşdür[5] .

---

[4] Paşayev, H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi // – Bakı: Dirçəliş – XXI əsr, – avqust 2003. №66, – s.95-100.

[5] Həsənov, Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996) / Ə.Həsənov. – Bakı: Elm, – 2000. – 368 s.; yenə onun. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD MMC, – 2016. – 296 s.; Yenə onun. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi

Y.M.Mahmudovun tədqiqatları[6] Azərbaycana qarşı transmilli erməni terrorunun tarixi köklərinin öyrənilməsi və erməni terrorizminin əsil mahiyyətinin üzə çıxarılması baxımından əhəmiyyətlidir.

Müasir terrorizmin xüsusiyyətləri, onun yaranması və inkişafını şərtləndirən amillər, habelə bu fenomenə qarşı mübarizənin bir sıra siyasi və beynəlxalq-hüquqi aspektləri R.Sevdimalıyevin əsərlərində işıqlandırılmışdır[7].

M.Qasımlının dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinə və parlamentarizm tarixinə həsr edilmiş əsərlərində terrorizmə qarşı Azərbaycan-ABŞ əməkdaşlığı məsələlərinə də toxunulmuşdur[8].

R.Mustafayev[9], E.Əhmədov[10], T.Köçərli[11], A.Abbasbəyli[12], E.Kəlbizadə[13], K.F.Ruintənin[14] S.Hacıyevin[15], Ş.Məmmədovun[16],

---

ümumavropa təhlükəsizliyi fonunda / Ə.M.Həsənov. – Bakı: İşıq, – 1997. – 80 s. və s.

6 Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y.Mahmudov – Bakı: Azərnəşr, – 2002. – 326 s.; yenə onun. Real tarix və böyük Ermənistan uydurması / Y.Mahmudov – Bakı: Elm, – 2017. – 248 s.

7 Севдималиев, Р. Международный терроризм – глобальная проблема современности / Р.Севдималиев. – Баку: Элм, – 2004. – 312 с.; его же. Севдималиев, Р. Международный терроризм и политико-правовые проблемы борьбы с ним/ Р.Севдималиев. – Баку: NDGO, – 2011. – 504 с.

8 Qasımlı, M. “Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920) / M.Qasımlı. – Bakı: Mütərcim, –2014. – 468 s.; yenə onun. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) [2 hissədə]/ M.Qasımlı. – Bakı: Mütərcim, c.1. – 2015. – 648 s.; – Bakı: Mütərcim; c.2. – 2015, – 664 s.; yenə onun. Cənubi Qafqaz kütləvi qırğınlar ərəfəsində (1903-1904) // – Bakı: Milli Məclis jurnalı, – 2012. № 2-3, – s.70-73.

9 Мустафаев, Р. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX века) / Р.Мустафаев.– Баку: Элм, – 2002. – 154 с.

10 Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) / E.Əhmədov. – Ensiklopedik nəşr. Bakı: Letterpress, – 2012. – 912 s.

11 Köçərli, T.Q. Qarabağ: yalan və həqiqət / T.Q.Köçərli. – Bakı: İşıq, – 1998. – 242 s.; Qarabağ / T.Q.Köçərli. – Bakı: Elm, –2002. – 470 s.

12 Аббасбейли, А. Гейдар Алиев и мировая политика / Аббасбейли А., Аббасбейли Э. / – Баку: Азернешр, – 1997.– 328 с.

E.Nəsirovun[17] və başqalarının[18] araşdırmalarında da tədqiq etdiyimiz mövzunun müxtəlif aspektləri müəyyən qədər işıqlandırılmışdır.

Son illərdə Azərbaycan tarixşünaslığında erməni millətçilərin azərbaycan xalqına qarşı hayata keçirdikləri terror aktları, etnik təmizləmələ və soyqırımları sistemli şəkildə araşdırılmış və bir sıra sənəd topluları nəşr olunmuşdur.

ABŞ-ın Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini müasir beynəlxalq münasibətlər və geosiyasət fonunda araşdırmış ABŞ müəlliflərinin əsərlərində də terrorizmlə mübarizə məsələlərinə toxunmuşlar. Bu baxımdan Z.Bjezinski, R.-Leqvold, Th. Fridman, İ.Berman və digər müəlliflərin əsərləri əhəmiyyətlidir[19].

---

[13]Kəlbizadə E., Ermənistan İranın Qafqaz siyasətində / E.Kəlbizadə, Y.Baxşıyeva, Ə.Əzimov. – Bakı: MTM İnnovation, – 2019. – 360 s.

[14]Ruintən,K. ErmənistanınAzərbaycanatəcavüzü və dünyasiyasəti / K.Ruintən– Bakı: Adiloğlu, –2008. –260 s.

[15]Hacıyev, S.T. XX əsrdə Türkiyəyə qarşı Ermənivə PKKterroru/ tarix elmləri doktoru dis. avtoreferatı. / – Bakı, 2007. – 46 s.

[16]Məmmədov, Ş.Ş. Erməni terroru və böyük dövlətlərin ikili standartlar siyasəti: (XIX əsr-XXI əsrin əvvəli) / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Naxçıvan, 2010. – 21 s.

[17]Nəsirov, E. ABŞ və beynəlxalq terrorizm problemi: / siyasi elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2011. – 57 s.

[18] Məcidli, İ. Ermənistan Respublikasının terrorizm siyasəti və ondan Azərbaycan Respublikasına qarşı istifadə olunması: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2012. – 22 s.; Bayramova, B. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2015. – 27 s.; Əliyeva, S.M. Müasir siyasi sistem və separatçı terrorizm: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2011. – 24 s.

[19] Бжезинский, З. Великая шахматная доска / З.Бжезинский. – Москва: Международные отношения, – 2003. – 254 с.; Th.Friedman, The Lexus and the Olive Tree / Th.Friedman. – New York: Farrar, Straus and Giroux, – 1999. – 394 p.;Berman, I. Central Asia and South Caucasus – a New Battlefield // The Washington Quarterly, – 2004, 28 (1). – p. 59-69; Legvold R. New U.S. Strategy in Central Asia. New York, 2005; MacDougall J. New Stage in US-Caspian Sea Basin Relations // Central Asia, 1997, 5 (11), p.12- 18.; Jaffe A. US Polisy towards the Caspian Region: Can the Wist-list Be Realized? // The Security of the Caspian Sea Region. SIPRI, 2001, p.136-150.

Digər ölkələrin tədqiqatçılarından A.Aseyevskinin[20], Ə.Rəşidin[21], T.Vaalın[22], V.Kaftanın[23], D.Kuznetsovun[24], T.Meysanın[25], J.Burkenin[26] və başqalarının[27] əsərləri beynəlxalq terrorizmin mahiyyətinin, ona qarşı ABŞ-ın elan etdiyi mübarizənin mahiyyətinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Adı çəkilən müəlliflərin əsərlərində də terrorizmə qarşı Azərbaycan-ABŞ əməkdaşlığının tarixinə dair bəzi maraqlı faktlar verilir ki, onlarla tanışlıq tədqiqat işinin daha dolğun çıxmasına təsir göstərmişdir.

Müasir mərhələdə qanunazidd və insanlıq əleyhinə terror aktlarının aparıcı qüvvəsinin transmilli terrorizm, o cümlədən erməni terrorizminin olmasını bir çox mütəxəssislər əsərlərində qeyd etmişlər. Onların əsərlərində 1988-1994-cü illərdə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü təkcə özgə torpaqlarının ələ keçirilməsi uğrunda başladılmış işğalçılıq müharibəsi kimi deyil, eyni zamanda erməni terrorunun növbəti təzahürü və

---

[20] Асеевский, А.И. Кто организует и направляет международный терроризм? / А.И.Асеевский. – Москва: Политическая литература, – 1982. – 112 с.

[21] Ахмед, Р. Талибан. Ислам, нефть и новая Большая Игра в Центральной Азии. / Р.Ахмед. Пер. с англ. – Москва: Библион-Русская книга, – 2003г.–368 с.

[22] Ваал, Т. Чёрный сад. Армения и Азербайджан между миром и войной / Т.Ваал. Пер. с англ. – Москва: РОССПЭН. – 391 с.

[23] Кафтан, В. Противодействие терроризму / В.Кафтан.– Москва: ЮРАЙТ, – 2015. – 261 с.

[24] Кузнецов, Д. События 11 сентября 2001 года и проблема международного терроризма в зеркале общественного мнения / Д.Кузнецов. – Москва: URSS, – 2009г. – 400 с.

[25] Мейссан, Т. 11 сентября 2001 года. 2-е изд / Т.Мейссан.– Москва: Карно, Московский филиал, – 2003г. – 280 с.

[26] Burke, J. Al-Qaeda: Casting a Shadow of Terror / J.Burke. – London: I. B. Tauris, – 2003. – 238 p.; Burke, J. Al-Qaeda: The True Story of Radical Islam / J.Burke. – London: Penguin, – 2004 – 355 p.

[27] Джонс, С.Дж. На кладбище империй. Война США в Афганистане / С.Дж.Джонс. Пер. с англ./ – Москва: Эксмо, – 2013г. – 478 с.; Королёв, В. Загадки 11 сентября. Почему упали башни? / В.Королев.– Москва: Вече, – 2007г. – 384 с.

xaricdəki erməni diasporunun biznes-layihəsinə xidmət edən transmilli erməni terrorizmi kimi qiymətləndirilmişdir[28].

Tədqiqatın aparılması zamanı təkcə müxtəlif müəlliflərin əsərlərindən deyil, həm də ilkin mənbələrdən istifadə edilmişdir. Bu mənbələr içərisində müxtəlif beynəlxalq təşkilatların sənədləri[29], dövlət orqanlarının müxtəlif hüquqi və rəsmi sənədləri və onların toplularını[30], dövlət və siyasi xadimlərin çıxışları, qərarları, sərəncam və fərmanlarını, dövri mətbuat materiallarını, transmilli terrorizmin birbaşa şahidi olmuş şəxslərin xatirələrini[31] qeyd etmək olar.

Mövzunun öyrənilməsi zamanı Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, müsahibələri, fərman və sərəncamları həm metodoloji

---

[28] Кузнецов, О.Ю. История транснационального армянского терро-ризма в XX столетии (историко-криминологическое исследование) / О.Ю.Кузнецов. – Баку: Шарг-Гарб, –2015; Мустафаев, Р. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX века) / Р.Мустафаев. – Баку: Элм, – 2002. – 154 с.; Nəsirov, E. ABŞ və beynəlxalq terrorizm problemi: / siyasi elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2011. – 57 s.; Ruintən, K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti / K.Ruintən. – Bakı: Adiloğlu, –2008. –260 s.

[29] Security Council condemns, 'in strongest terms', terrorist attacks on United States: [Electronic resource] / September, 12, 2001. URL: https://www.un.org/press/en/2001/SC7143.doc.htm; Security Council Committee established pursuant to resolution 1267 (1999) concerning Al-Qaida and the Taliban and Associated Individuals and Entities: [Electronic resource] / URL: https://www.web.archive.org/web /2007040 7225635/

[30] Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (Документы и материалы). – Баку: Азернешр, – 1998, – 632 с.; Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Стенографические отчёты). – Баку: Азернешр, – 1998, – 992 с.; Закон Азербайджанской Республики от 18 июня 1999 года № 687-IQ «О борьбе с терроризмом»: [Электронный ресурс] / URL: –https:// online. zakon.kz/m/document/?doc_id=30601014 və s.

[31] Помпеев, Ю.А. Карабахский дневник / Ю.А.Помпеев. – Санкт-Петербург: Канон, – 2010. – 416 с.; yenə onun. Кровавый омут Карабаха / Ю.А.Помпеев.– Баку: Азербайджан, – 1992. – 208 с.; / Ю.А.Помпеев.– Санкт-Петербург, – 1993. – 128 с.

baxımdan, həm də mövzunun öyrənilməsi, yeni faktların əldə olunması baxımından istiqamətverici rol oynamışdır.

Azərbaycan və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizəsi probleminin tarixşünaslığına nəzər saldıqdan sonra belə nəticəyə gələ bilərik ki, bu məsələnin bəzi aspektləri araşdırılmış və bu baxımdan erməni terrorçularının Azərbaycanda türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımları tarixinin öyrənilməsində daha çox fəallıq nəzərə çarpır. Bununla yanaşı, Azərbaycan və ABŞ-ın müasir dövrdə beynəlxalq terrorizmə qarşı birgə mübarizəsi tarixinin bir çox məsələlərinin, xüsusən də Azərbaycana qarşı transmilli erməni terrorizminə ABŞ-ın münasibəti, beynəlxalq terrorçuluğa qarşı mübarizədə Azərbaycan Respublikasının ABŞ-la əməkdaşlığı, müasir mərhələdə Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəsinin əsas istiqamətləri, dünyanın müxtəlif regionlarında fəaliyyət göstərən terror təşkilatlarına münasibətdə Azərbaycanın və ABŞ-ın yanaşmasındakı fərqlər və sair öyrənilməyərək qalan aktual problemlərin araşdırılmasına böyük ehtiyac var.

**Tədqiqatın obyekti və predmeti.** Mövzunun obyektini bəşəriyyətə ən qlobal təhdidlərdən olan terror, transmilli terrorizm, predmetini isə Azərbaycan və ABŞ-ın müxtəlif formalarda təzahür edən lokal və beynəlxalq terrorizmə, onun qlobal təhlükəsizliyə qarşı təhdidlərinə qarşı ayrı-ayrılıqda və birgə mübarizəsi, bu mübarizədə iki dövlətin çoxcəhətli əməkdaşlığı təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiq etdiyimiz problemin araşdırılma səviy-yəsindən irəli gələrək tədqiqat işinin əsas məqsədi ayırd edilmişdir ki, bura dissertasiyanın xronoloji çərçivəsində (1991-2017-ci illər) Azərbaycan Respublikası və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə tarixinin, terrorizmlə mübarizədə iki ölkənin əməkdaşlığının müxtəlif aspektlərinin hərtərəfli, kompleks şəkildə araşdırılması, erməni terrorizminə və terrorizmin təzahürünün sair formalarına qarşı mübarizə prosesinin regional xüsusiyyətlərinin ayırd edilməsi və əsaslandırılması, bu prosesə qərəzli, təhrifedici yanaşmaların ifşa edilməsi, siyasi hadisələrin obyektiv, elmi mənzərəsinin yaradılması daxildir.

Tədqiqat zamanı qarşıya qoyulan məqsəddən irəli gələrək, geniş çeşidli nəşr edilmiş mənbələr, o cümlədən xüsusi ədəbiyyat mate-

riallarına əsaslanaraq aşağıdakı konkret vəzifələr müəyyənləşdirilmişdir:

- terrorizm anlayışı və onun növlərini ayırd etmək, transmilli terrorçu təşkilatların doğurduğu təhdidləri səciyyələndirmək;
- beynəlxalq terrorizmin yaranma səbəbləri, onun mənbələrini araşdırmaq, transmilli terrorizm sahəsində ABŞ-ın başlıca düşmənləri elan olunmuş "Taliban", "Əl-Qaidə", İŞİD kimi terror təşkilatlarının fəaliyyətini konkret istiqamətlər üzrə xarakterizə etmək;
- ABŞ-da baş vermiş 2001-ci il 11 sentyabr tarixli terror aktı ilə əlaqədar rəsmi Vaşinqton tərəfindən bu faciədən sonra ölkənin daxili təhlükəsizlik sahəsində görülmüş tədbirlərin əhəmiyyətini və müasir dövrdə baş verən tarixi proseslərə təsirini müəyyənləşdirmək;
- transmilli erməni terrorizminin formalaşması tarixini tədqiq etmək, onun Azərbaycana qarşı fəaliyyətini öyrənmək və erməni terrorizminin beynəlxalq terrorizmin bir hissəsi olduğunu əsaslandırmaq;
- erməni terroru qarşısında Azərbaycan Respublikasının daxili vəziyyətinə dair məsələləri işıqlandırmaq;
- erməni terrorizminin Azərbaycana yönəlik aktiv mərhələsini nəzərdən keçirmək və Xocalı soyqırımı nümunəsində erməni terrorizminin və faşizminin xarakterik xüsusiyyətlərini təhlil etmək;
- beynəlxalq terrorizmlə mübarizənin əsas istiqamətlərini araşdırmaq, Azərbaycan Respublikası ilə ABŞ-ın transmilli terrorizmlə mübarizədə strateji tərəfdaşlığı tarixini tədqiq etmək;
- Azərbaycanın istər qlobal terrorçuluğa, istərsə də bilavasitə üzləşdiyi, sözügedən terror qruplaşmaları ilə əlaqəsi olan erməni terrorizminə qarşı fəaliyyət istiqamətlərini öyrənmək ;
- ABŞ və dünya birliyinin transmilli terrorizmlə mübarizəsində keçdiyi tarixi inkişaf yolunu tədqiq və xarakterizə etmək;
- beynəlxalq terrorizmin təsirinin istər ABŞ və Azərbaycan Respublikası üçün, istərsə də digər dövlətlər üçün mənfi nəticələrini aydınlaşdırmaq;

- ABŞ və Azərbaycana qarşı yönəlmiş terrorizmin müxtəlif formalı cinayətlərinin mahiyyətinin nədən ibarət olduğunu təhlil etmək;
- tədqiqat işinə yekun vuraraq alınan nəticələr əsasında təkliflər irəli sürmək.

**Tədqiqat metodları.** Elmi tədqiqat tarix elmində qəbul edilmiş elmi-nəzəri metodologiyalar və müvafiq metodlardan istifadə olunmaqla aparılmışdır. Tədqiqatın metodoloji əsasını konkret tarixi və nisbətən tarixi, tipoloji bazislər, problemin aktuallığı və mühümlüyü, eləcə də genetik, funksional-struktur və sistem təhlilləri metodları təşkil edir. Mövzunun çoxcəhətliliyi nəzərə alınaraq elmi abstraksiya, məntiqi və tarixi əlaqə, induksiya, deduksiya, retrospektiv metodlardan da istifadə edilmişdir. Müqayisəli və tənqidi təhlil vasitəsi ilə əldə olunmuş elmi nəticələr ümumiləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya mövzusunun spesifik xarakter daşıdığını nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlığı birqütblü dünyanın aparıcı güc mərkəzinə direktiv bağlılığın deyil, tədricən regionun aparıcı dövlətinə çevrilməkdə olan ölkəmizin artan geosiyasi, iqtisadi və hərbi çəkisinin göstəricisidir.

- Ermənistanda terror dövlət siyasətinin mühüm komponentinə çevirməklə, terror metodlarına istinadla özünün işğalçı planlarını həyata keçirməyə çalışır. Bəllidir ki, ölkəmiz on illərdən bəri Yaxın və Orta Şərqdəki bir sıra terror təşkilatları ilə sıx əlaqədə olan transmilli erməni terroruna məruz qalmışdır. Bu baxımdan Azərbaycan Respublikasının erməni təcavüzü və onun başlıca metodu olan erməni terrorçuluğu ilə mübarizəsi obyektiv olaraq sivil dünyanın qlobal terrorizmlə savaşının bir epizodunu təşkil edir.

- Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikası-ABŞ əməkdaşlığı təkcə Azərbaycanın ABŞ-a verdiyi dəstək kontekstində qiymətləndirilməməli, erməni terrorizminə münasibətdə ABŞ-ın məsələyə yanaşmasının obyektiv və subyektiv səbəblərlə əlaqəli olduğu qeyd edilməlidir;

- Azərbaycan Respublikasının beynəlxalq antiterror mübarizəsində ABŞ-la birgə iştirakının həm də bölgənin iqtisadi, Avropanın

və ABŞ-ın isə enerji təhlükəsizliyinin tərkib hissəsi olan neft və təbii qaz boru kəmərlərinin təhlükəsizliyi üçün də vacib əhəmiyyətə malikdir;

- Azərbaycan Respublikasının beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-la birgə fəaliyyətinin konseptual əsasları Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir;

- Azərbaycanın qlobal terrorizm təzahürlərinə qarşı ABŞ başda olmaqla, geniş beynəlxalq koalisiyalarda yer alması onun xarici-siyasi səhnədə daha da tanınmasına, daha geniş platformalarda öz tələblərini irəli sürməsinə şərait yaratmışdır. Azərbaycan diplomatiyasının son illərdə əldə etdiyi önəmli nailiyyətlərdə də sözügedən amilin böyük rolu vardır.

- Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəsi eyni zamanda onun yeni qlobal təhlülkəsizlik sisteminin təşəkkülündə də fəal və təsirli iştirakından xəbər verir.

**Tədqiqatın elmi yeniliyi** problemin qoyuluşu ilə müəyyən olunmuşdur. Tədqiqatın əsas elmi yenilikləri aşağıdakılardır:

- Azərbaycan Respublikası və ABŞ-ın beynəlxalq terrorizmlə birgə mübarizəsi mövzusu ilk dəfə olaraq tarixi konteksdə və kompleks şəkildə tədqiq edilmişdir;

- sübut olunmuşdur ki, ABŞ-a qarşı müxtəlif terror aktları törədən təşkilatlarla Azərbaycana qarşı qanlı və silsilə terror aktları həyata keçirmiş transmilli erməni terrorizmi sıx əlaqədədir. Erməni terrorizmi bir çox hallarda xarakterik xüsusiyyətlərinə görə daha təhlükəlidir. Bu fikir müəllifin 2015-ci ildə nəşr edilən "Erməni terrorizmi" adlı məqaləsində irəli sürülmüş və əsaslandırılmışdır;

- terroru dəstəkləyən dövlət kimi Ermənistan dövlətində Azərbaycan Respublikası ilə ABŞ-ın beynəlxalq terrorizmə qarşı birgə mübarizəsi daim təlaş və narahatlıq doğurmuşdur. Bu yeniliyin başlıca müddəaları müəllifin 2011-ci ildə çap olunan "Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə" adlı məqaləsində əsaslandırılmışdır;

- beynəlxalq terrorçuluğa qarşı mübarizədə Azərbaycan Respublikasının ABŞ üçün əhəmiyyətini müəyyənləşdirən başlıca amillərdən biri ölkənin geostrateji mövqeyidir. Dissertasiya

müəllifinin 2016-cı ildə Ukraynada çap edilmiş “Birləşmiş Ştatların antiterror əməliyyatı – “İraqın azadlığı əməliyyatı” və onun nəticələri” adlı məqaləsində bu məsələ aydınlaşdırılmışdır;

- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq ABŞ-ın beynəlxalq terrorizmlə mübarizə metodları tarixi aspektdən tədqiq edilmiş və analoji metodların tətbiq edilmə imkanları qiymətləndirilmişdir. Müəllifin 2015-ci ildə çap edilmiş “ABŞ-ın beynəlxalq terrorizmlə mübarizə metodları” və 2017-ci ildə çap olunan “Yaxın Şərqdə terrorizm və mübarizənin Amerikan strategiyası” məqalələri məhz bu elmi yeniliyin əsaslandırılmasına həsr olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada öz əksini tapmış praktiki və nəzəri yekunlar, tədqiqat vasitəsi ilə təhlil olunmuş materiallar və ümumiləşdirmələr Azərbaycan Respublikasının beynəlxalq terrorizmlə mübarizə sahəsində və digər dövlətlərlə qarşılıqlı əlaqəsinin anlaşılmasında əhəmiyyətli ola bilər.

Yuxarıda qeyd olunanlardan irəli gələrək tədqiqat işinin əhəmiyyətli olduğunu hesab edirik. Belə ki, hazırkı iş:

- transmilli terrorizmin istər dünya birliyi üçün, istərsə də ABŞ və Azərbaycan Respublikası üçün təhlükəsinin obyektiv anlaşılması üçün zəmin yaradır;
- həm terrorizmin özünü, həm də onun beynəlxalq ictimaiyyətə təsirini dərindən öyrənməyə yardım edir;
- beynəlxalq terrorizmin təkamülünü və onun xarakterini, bununla yanaşı isə həm də onun tərkib hissəsi olan erməni transmilli terrorizminin köklərini izah edir;
- beynəlxalq terrorizmin mahiyyətini və neqativlərini ABŞ və Azərbaycan Respublikası ictimaiyyətinin diqqətinə obyektiv surətdə çatdırır.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin Elmi Şurasının 15 iyul 2014-cü il tarixli iclasında və Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Siyasi elmlər üzrə Elmi Şurasının müvafiq iclasında müzakirə edilərək təsdiq edilmişdir.

Dissertasiyanın əsas məzmununa aid müəllif Azərbaycanda və xarici ölkələrdə keçirilmiş beynəlxalq və respublika konfranslarında məruzələrlə çıxış etmişdir. Dissertasiya işinin əsas müddəaları və nəticələri iddiaçının Azərbaycanda və xaricdə çap edilən məqalələrində əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix və tarixin tədrisi texnologiyası" kafedrasıdır.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi 284123 işarə (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) təşkil edir. "Giriş" 26005 işarə, Birinci fəsil-57076 işarə, ikinci fəsil 92772 işarə, üçüncü fəsil 97770 işarə, "Nəticə" 10500 işarədən ibarətdir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi, əməli-təcrübi əhəmiyyəti verilmişdir.

Dissertasiya işinin **birinci fəsli "Terrorizm müasir dövrün qlobal problemi kimi"** adlanır. Fəsil iki yarımfəsildən ibarətdir.Fəslin **birinci yarımfəsli "Terrorizm anlayışı və onun növləri"** adlanır. Araşdırma zamanı müəyyən olunur ki, terror – siyasi rəqibləri zorakılıq metodları ilə qorxutmaq, dəf etmək siyasətidir. Terroristlərin məqsədi təkcə qurbanlarına çevirdikləri girovlarda deyil, həmçinin bütün insanlarda vahimə hissini yaratmaqdan ibarətdir. Terroristlər cəmiyyətin siyasi və iqtisadi strukturlarında xaos vəziyyəti yaratmağa, kütləvi şüurda qorxu hissini doğurmağa çalışır. Terroristlərin hərəkətləri cəmiyyətdə çaxnaşma yaratmağa, dövlət strukturlarının işini çaşdırmağa və pozmağa yönəlib. Amerikalı politoloq A.Kassissin fikrincə, terrorizmin 100-dən artıq tərifi var və beynəlxalq-hüquqi aspektdə bu – "mənasız insan tələfatına səbəb olan, dövlətlərin normal diplomatik fəaliyyətinə və beynəlxalq

əlaqələrin və görüşlərin keçirilməsinə, eləcə də dövlətlərarası nəqliyyat əlaqələrinə əngəl olan beynəlxalq planda ictimai təhlükə təşkil edən əməllər məcmusudur”.

Terrorizmin bir neçə əsas sahəsi məlumdur. Siyasi terror – bu və ya digər qərarları qəbul etməyə, müəyyən hərəkətləri icra etməyə məcbur etmək üçün siyasi liderlərə və hakimiyyət nümayəndələrinə təzyiq göstərmək məqsədini daşıyır: İnformasiya terroru – lazım olan ictimai rəyi formalaşdırmaq üçün insanların psixikasına və şüuruna təsir formasında təzahür edir. Metod – şayiələrin yayılması. İqtisadi terror – iqtisadi rəqiblərə təzyiq göstərmək məqsədilə qeyri-bərabər iqtisadi hərəkətlər; metodlar – rəqibin səhmlərinin ucuzlaşdırılmasına yönəlmiş və ya onu müflisləşməyə gətirib çıxaran tədbirlər. Sosial (məişət) terroru – məişət səviyyəsində hədə-qorxu gəlmə və xətər yetirmə aktları. Metodlar – zorakılıqla hədələmə, ölkə əhalisini vahimə vəziyyətinə gətirmə, terror aktları. Terror qruplaşmaları əsas etibarilə teraktların təşəbbüskarı, təşkilatçısı və icraçısı arasında rol bölgüsünün olduğu döyüş təşkilatlarının hərbiləşdirilmiş bölmələridir. Təşkilatın arxasında isə teraktların sifarişçiləri və maliyyəçiləri dayanır.

**İkinci yarımfəsil “Beynəlxalq terrorizmin yaranma səbəbləri, onun mənbələri və təsnifatı”** adlanır. Beynəlxalq və milli təhlükəsizliyin təhdid formalarından biri kimi beynəlxalq terrorizm daha radikal siyasi qruplaşmaların və ekstremist elementlərin arzu edilməyən hakim rejimə, hökumətə və ya digər siyasi və ictimai fikirlərin nümayəndələrinə qarşı mübarizə forması kimi ötən yüzilliyin 60-cı illərində meydana gəldiyi qeyd olunur.[32] Dövlət idarəçiliyi və ictimai asayişi pozmaq, ümumi xaos və qorxu atmosferini yaratmaq; hakimiyyətə və əhaliyə siyasi, iqtisadi və mənəvi zərər yetirmək; bu və ya digər ölkədə, yaxud regionda situasiyanın qeyri-stabil hala salmaq; Əhali qrupları arasında etnik-konfessial zəmində və ya digər zəmində silahlı münaqişələrin və

[32] Иванов С. Международный терроризм: причины его возникновения и меры противодействия // – Зарубежное военное обозрение. – 2014, № 2, – с. 8-13, – с. 8-9.

toqquşmaların meydana gəlməsinə təhrik etmək beynəlxalq terrorizmin əsas məqsədidir.

Aparılan tədqiqatlar zamanı məlum olur ki, terrorizm sosial, milli və dini problemlər; terror aktlarının hərbi əməliyyatların bir hissəsinə çevrildiyi müharibələr və hərbi münaqişələr; yüksək maddi imkan və mədəniyyət səviyyəsi ilə, eləcə də siyasi, iqtisadi və hərbi gücü sayəsində, yaxud digər imkanlarına görə yaxın və uzaq qonşularından seçilən sosial qrupların olması; özünü "bəşəriyyətin xilaskarları" hesab edən dini, sekta və digər təşkilatların fəaliyyəti; iqtisadi və maliyyə problemlərinin həll olunmaması nəticəsində əmələ gəlir.

Aparılan təhlillər göstərir ki, bəşər tarixində xüsusi fenomen kimi meydana çıxan terrorizm XX əsrin sonu – XXI əsrin əvvəllərində öz inkişafında yeni kəmiyyət və keyfiyyət mərhələsinə qədəm qoymuş, həmin mərhələdə lokal səviyyədən çıxaraq qloballaşmış, terror təşkilatlarının yeni bir növü olan transmilli terror təşkilatları yaranmışdır. Tədqiq olunan dövrdə terrorizmin kəsb etdiyini ən mühüm yeni xüsusiyyətlərdən biri onun hüquqi dövlətlərin və hökumətlərin sahib olduğu demək olar ki, bütün üsul və vasitələri ələ keçirməyə və onlardan istifadə etməyə çalışmasıdır. Tədqiq olunan mərhələdə terrorizmin təbliğat və informasiya manipulyasiyası imkanları artmışdır. Beynəlxalq terrorizmin güclənməsinin səbəblərindən biri rəqib dövlətlərin bir-birlərinə qarşı apardıqları mübarizədə onların imkanlarından istifadə etməsi, bu və ya digər şəkildə onların fəaliyyətini dəstəkləməsidir.

Dissertasiya işinin **ikinci fəsli "Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə yanaşması və onunla mübarizə metodları"** adlanır. Fəslin **"Beynəlxalq terror təşkilatlarının meydana gəlməsi və ABŞ-ın onlara münasibəti"** adlanan **birinci yarımfəslində** XX əsrin əvvəllərində terrorizmin yeni mərhələyə qədəm qoyması ABŞ-ın beynəlxalq terrorizmi dərk etməsi və ona qarşı reaksiyası ilə nəticələnmişdi. O dövrdə anarxist və kommunist zorakılığının qlobal yüksəlişi ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizəyə yönəlmiş ilk böyük hökumət proqramlarının işlənilib hazırlanmasına təkan vermişdir. XX əsrin 20-ci illərində Dövlət Departamenti ABŞ-ın beynəlxalq terrorizmə cavab tədbirlərini hazırlayan, ümumiyyətlə

xarici hökumətlərlə diplomatiya və məlumat mübadiləsi ortaqlığı ilə kommunist terrorizminə qarşı mübarizəni hazırlayan əsas hökumət təşkilatına çevrilmişdi. Dövlət Departamentinin Antiterror koordinatorluğunun ABŞ-da yerləşməyən terror təşkilatlarının siyahısını müəyyənləşdirməsi ənənəsi də məhz o dövrdən formalaşmağa başlamışdı. 1979-cu ildə İrandakı girov böhranı ABŞ-ın antiterror siyasətində iki əsas dəyişikliyin başlanğıcını oldu. ABŞ İslam terrorizmi anlayışını irəli sürdü və bu məqsədlə Yaxın Şərq ölkələrində hərbi qüvvələrini yerləşdirməyə başladı.

Hazırda ABŞ-ın terror təşkilatları siyahısında dünyanın ən müxtəlif ölkələrində fəaliyyət göstərən təşkilatların adı vardı. Bunlardan ən məşhurları Həmas, Hizbullah, Kahane-Cai, PKK, Fələstin Azadlıq Cəbhəsi, Əl-Qaidə, Boko-Haram, Əl Nüsra Cəbhəsi, və başqalarıdır.[33] Göründüyü kimi, bu siyahıda yer alan təşkilatlar dünyanın İran, Fələstin, İraq, Əfqanıstan, Pakistan, İsrail, Sudan və s. kimi ən müxtəlif ölkələrində fəaliyyət göstərirlər.

Aparılan tədqiqatlar göstərir ki, ABŞ dünyanın ən müxtəlif bölgələrində fəaliyyət göstərən terror təşkilatlarının fəaliyyətini daim izləməyə çalışmış, onların fəaliyyətinin öz dövlət maraqlarına toxunub toxunmamasından asılı olaraq terrorizm və ya qeyri-terrorizm kimi qiymətləndirmişdir. Bu səbəbdən də ABŞ Dövlət Depratamentinin terror təşkilatları ilə bağlı tərtib etdiyi siyahılarda vaxtaşırı olaraq dəyişikliklər baş vermişdir. Tədqiq olunan xronoloji çərçivədə ABŞ transmilli terrorizmə qarşı mübarizə dedikdə, əsasən Taliban, Əl-Qaidə, İŞİD kimi təşkilatlara qarşı mübarizəni, Əfqanıstan və İraq kimi ölkələrə müdaxiləni nəzərdə tutmuşdur.

Fəslin **ikinci yarımfəsli “11 sentyabr 2001-ci il hadisələri. Beynəlxalq antiterror koalisiyasının yaradılması və fəaliyyəti”** adlanır. Qeyd edək ki, ABŞ-ın transmilli terrorizmə qarşı mübarizəsi 2001-ci ildən sonrakı dövrdə yeni mərhələyə qədəm qoymuş, başqa sözlə desək, ABŞ milli təhlükəsizliyinin əsas problemlərindən birinə çevrilmişdi. Bəzən qısaca olaraq 9/11 adlandırılan 11 sentyabr terror aktları - “Əl-Qaidə” döyüşçülərinin ABŞ-da törətdiyi dörd koordina-

[33] Foreign Terrorist Organizations: [Electron resource] / – URL: https://2009-2017.state.gov/j/ct/rls/ other/des/ 123085.htm. [08.10.2017]

siya olunmuş suisid aksiyası idi.[34] BMT TŞ onları “vahiməli terror aktları” kimi təsnifatlandırdı.[35]

Araşdırma əsasında məlum oldu ki, ABŞ və dünya dövlətləri terror təşkilatlarının təhlükəsinin qloballaşdığının fərqinə vardılar. Terrorun bütün növləri ilə mübarizə zərurəti ortaya çıxdı. Lakin dünya dövlətlərinin, o cümlədən ABŞ-ın terrorun bütün təzahürləri ilə mübarizədə səmimi olduğunu söyləmək olmaz. Tədqiqatlar göstərir ki, ABŞ-ın terrorizmə və terror təşkilatlarına qarşı mübarizəsi daha çox ona qarşı təhlükənin miqyasından asılıdır.

Fəslin **üçüncü yarımfəsli “Beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı ABŞ-ın dövlət proqramı və görülən tədbirlər”** adlanır. ABŞ yalnız özü üçün fors-major situasiya olduqda anti-terror kompaniyalarına fəal və hərtərəfli qaydada qoşulur. Belə ki, 11 sentyabr hadisələrindən sonrakı hadisələr buna misal ola bilər. Lakin tezliklə Vaşinqton yenidən terrorçulara nöqtəli zərbələr endirmə taktikasına keçid aldı. Onlardan ən əhəmiyyətlisi 2 may 2011-ci ildə ben Ladenin məhv edilməsi oldu. 11 sentyabr hadisələrindən sonra da yalnız sözdə transmilli terrorizmlə mübarizə üçün beynəlxalq koalisiyanın yaradılması müdafiə olunurdu. Belə ki, Vaşinqton üçün əsas məqsəd “Zərər verməmək!”, yəni bilavasitə ABŞ üçün təhlükəni ləğv etmək, sonra isə “əhliləşdirilmiş” terror strukturlarını əvvəlki kimi öz məqsədləri üçün istifadə etməkdən ibarət idi.[36]Həqiqətən də terrorizmlə mübarizədə ABŞ-ın bütün fəaliyyətinin analizi onun təkbaşına lider roluna iddia etməsini təsdiq etməyə imkan verir. Lakin bu koordinat sistemində onlar sadəcə olaraq “ümumi qəbul

---

[34] Security Council condemns, ‘in strongest terms’, terrorist attacks on United States. September, 12, 2001: [Electron resource] / – URL: https: www.un.org/press /en/2001/SC7143.doc.htm

[35] Security Council Committee established pursuant to resolution 1267 (1999) concerning Al-Qaida and the Taliban and Associated Individuals and Entities: [Electron resource] / – URL:https://web.archive.org/web/ 20070407225635 /http://www.un.org/sc/committees/1267/index.shtml.10.09.2015

[36] Канафина Г.Е. К вопросу политики США в области борьбы с международным терроризмом // Казань, – Вестник КазНПУ, –2011, [Электронный ресурс] / –URL:https://articlekz.com/article/11329; Эллиот С. Сценарии дальнейших вторжений США. Пер. с англ./ С.Эллиот. –Москва: Европа, –2013. –103 с.;

olunmuş rəhbər" adına yiyələnmək istəyir. Əslində isə onların məqsədi - transmilli terrorizmlə mübarizənin səviyyə və intensivliyini ciddi şəkildə dozalaşdırmaq, yəni onunla mübarizəni yalnız ABŞ-ın özünə lazım olan dərəcədə aparmaqdır.

Tədqiqatlar göstərir ki, ABŞ-dakı Kiber təhlükəsizlik üzrə milli idarənin fəaliyyətini strateji məqsədləri və prioritetləri: kiber məkanda baş verən hadisələrə effektiv milli reaksiya sisteminin yaradılması və dəstəklənməsi, kompüter insidentlərinə reaksiya üzrə Milli planın işlənib hazırlanması, mühüm milli infrastrukturun elementləri olan idarəetmə sistemlərinin təhlükəsizliyinin artırılmasıdır. Nəticədə fəaliyyət növlərinin daha az sayda bina və obyektlərdə sıx konsentrasiyası sayəsində müdafiənin səviyyəsini qaldırmaq mümkün olmuşdur.[37] Buna baxmayaraq, kimyəvi, neft-kimya, neft-qaz və əczaçılıq sənayesinin avtomatlaşdırılmış komplekslərində, eləcə də su təchizatı, energetika və nəqliyyat sistemlərində istifadə olunan dispetçer idarəçiliyi və verilənlərin toplanması sistemi xüsusilə zəif yerlərdir, belə ki, burada nisbətən asanlıqla əl çatan internetdən istifadə olunur .

Terrorçuların məhkəməyə verilməsi ABŞ-ın terrorizmlə mübarizədə apardığı siyasətin ən vacib prinsiplərindəndir. Hesab olunur ki, həbs etmə və cəzalandırma perspektivi terrorçuları hüquqazidd hərəkətlərdən çəkinməyə məcbur edə bilər. Bu lazımi effekt vermədiyi halda isə azadlıqda qalan və barələrində axtarış elan edilmiş terrorçular davranışlarının daha da məhdudlaşdırılması nəzərdə tutulur.

ABŞ-ın transmilli terrorizmlə mübarizəsi bir sıra prinsiplərə əsaslanır. Onların əksəriyyəti Vaşinqtona əvvəllər də məlum olmuşdur. Lakin onlar sadəcə olaraq bəyan edilmiş, onlar barəsində fərziyyələr irəli sürülmüşdür. Yalnız 11 sentyabr hadisələrindən sonra bu prinsiplər xüsusi aktuallıq və beynəlxalq aspekt əldə etdi. Bu prinsiplər səfir F.K.Teylorun rəhbərlik etdiyi Terrorizmlə mübarizə idarəsi tərəfindən işlənib hazırlanıb. İdarə öz fəaliyyətini

[37] Компьютерная безопасность: [Электронный ресурс] / – URL:https://www.do.gendocs.ru/docs/ index-339916.html.[10.10.2016].

ABŞ Dövlət departamenti və terrorizmlə mübarizə üzrə Amerika idarələrarası işçi qrupu ilə əlaqəli şəkildə həyata keçirir.

ABŞ-ın bu işi dörd prinsip əsasında qurulur: terrorçulara güzəşt etməmək və onlarla heç bir saziş bağlamamaq; törədilmiş cinayətlərə görə terrorçuları ədalət məhkəməsinə vermək; terrorizmi dəstəkləyən və maliyyələşdirən dövlətləri təcrid etmək və öz davranışını dəyişməyə məcbur etmək məqsədi ilə onlara təzyiq göstərmək; ABŞ-la əməkdaşlıq edən və yardıma ehtiyacı olan ölkələrdə terrorizmlə mübarizənin forma və vasitələrini gücləndirmək.

Dissertasiya işinin **üçüncü fəsli "Azərbaycan Respublikası ilə ABŞ arasında beynəlxalq terrorizmlə mübarizə sahəsində strateji tərəfdaşlıq"** adlanır. Fəsil üç yarımfəsildən ibarətdir. **"Azərbaycana qarşı transmilli erməni terrorizmi və ABŞ-ın mövqeyi"** adlanan **birinci yarımfəsildə** erməni millətçilərinin terrordan siyasi məqsədlər üçün istifadə etməsi, transmilli terror şəbəkəsi yaradaraq vəhşiliyi vərdiş halına gətirməsi və terroru dövlət siyasətinə çevirməsini nümayiş etdirən məsələlərindən bəhs olunur. Məlumdur ki, antitürk və antiazərbaycan erməni terrorizmi XX-XXI əsrin əvvəllərində müxtəlif formalarda təzahür etməklə davam etmişdir. Bu, elan olunmamış dörd təcavüzkar müharibə və dəfələrlə olunan deportasiyalar, azərbaycanlıların etnosidi və soyqırımı, Azərbaycan torpaqlarının işğalı və Azərbaycan toponimlərinin erməniləşdirilməsi, elmi-mədəni və siyasi diffarmasiya, insanlığa qarşı konfessional və diplomatik cinayətlər və Azərbaycan əleyhinə böhtanlardır.[38] Antiazərbaycan erməni terrorizminin fəal fazası 1918-1994-

---

[38]Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) / E.Əhmədov. – Ensiklopedik nəşr. Bakı: Letterpress, – 2012. – 912 s.; yenə onun. Ermənistanın dövlət terrorizmi siyasəti və Azərbaycana qarşı təcavüzünün nəticələri: [Elektron resurs] / – URL: https: //www.az.strategiya.az/old/ ?m=xeber&id=3995; yenə onun. Heydər Əliyevin XX əsrin 60-80-cı illərində ermənilərin əsassız ərazi iddialarına qarşı mübarizəsi: [Elektron resurs] / – URL: https: //www. az/old/?m =xeber& id= 19639; Гусейн-заде, Р. Кавказ и армяне / Р.Гусейн-заде, – Bakı: Апостроф, –2014. – 486 с.; Мустафаев, Р. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX века) / Р.Мустафаев – Баку: Элм, – 2002. – 154 с.; Наджафов, Б. Лицо врага: История армянского национализма в Закавказье в конце XIX - начале XX веков / Б.Наджафов – Баку: Элм, –1992. –166 с.

cü ilə təsadüf etmişdir. Onun aksiyaları nəinki hüquqaziddir, həmçinin beynəlxalq ictimaiyyətin qaydalarına görə keçmişlik müddəti olmayan insanlıq əleyhinə cinayət xarakteri daşıyır. Bununla əlaqədar olaraq, onu azərbaycanlılara qarşı yönəlmiş etnik terrorizm kimi səciyyələndirmək lazımdır.

Qeyd etmək lazımdır ki, "erməni terrorizmi" termini ilk dəfə ABŞ-da 35 il əvvəl – ABŞ Dövlət Departamentinin 1982-ci ilin avqust ayı üçün aylıq bülletenində rəsmən istifadə olunmuşdur.[39] Azərbaycana və azərbaycanlılara qarşı erməni terrorizmi "qaynar" və "soyuq" fazalarla davam edən ən az "100 illik müharibə" kimi qiymətləndirilməlidir. "Soyuq" fazalar ermənilərin azərbaycanlıların torpaqlarına və tarixinə, maddi və mənəvi mədəniyyətinə iddiaların qeyd olunduğu müxtəlif əsərlərin nəşr edilməsində təzahür edir. "Qaynar" fazalar isə 1919-1920 və 1988-1994-cü illərdə Ermənistanın Azərbaycana qarşı apardığı elan olunmamış işğalçı müharibələri, eləcə də çoxsaylı terror aktlarıdır. Ermənistan Respublikasından olduğu kimi, ermənilər tərəfindən qəsb edilmiş bütün ərazilərdən azərbaycanlılar tamamilə qovulmuşdur. 1918-ci ildən 1994-cü ilə qədər ümumilikdə 1 milyon 600 min azərbaycanlı sürgün edilmişdir.[40]

ABŞ-da Amerika Erməni Assambleyası, Erməni Milli Komitəsi, Erməni İnqlab Federasiyası, Şərqi Amerika Hnçak Sosial Demokrat Partiyası, Erməni Liberal Demokratik Partiyası, Milli Erməni-Amerikan Respublika Məclisi kimi erməni lobbi təşkilatlarının fəaliyyəti xüsusilə aktiv şəkildə müşahidə edilməkdədir. Məsələn, Amerika Erməni Assambleyasının fəaliyyəti ABŞ-dakı erməni milli şüurunu daha da gücləndirmək, amerikan xalqında ermənilər və Ermənistanla bağlı ictimai rəy formalaşdırmaq, humanitar və təhsil

---

[39]Кузнецов, О.Ю. История транснационального армянского терроризма в XX столетии (историко-криминологическое исследование) / О.Ю.Кузнецов – Баку: Шарг-Гарб, –2015. – 411 с., с. 10; Corsun, A. Armenian Terrorism: A Profile // U.S. Department of State Bulletin, – Washington: D.C., – August, No. 82, – 1982. – pp.31-35.

[40]Nəcəfli, G. Şərqi Anadolu Naxçıvan və İrəvan bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar (1918-1920) / G.Nəcəfli – Bakı: Elm, – 2017. – 248 s., s. 16-18.

sahələrində ermənilərin qarşılaşdıqları problemlərin həlli ilə məşğul olmaqdan ibarətdir.

Fəslin ikinci yarımfəsli **“Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikasının ABŞ-la əməkdaşlığı”** adlanır. Aparılan təhlillər göstərir ki, Azərbaycan terrorizmə qarşı mübarizə tədbirlərində fəal rol oynayır. Bu sahədə beynəlxalq əməkdaşlıq vacibdir, çünki dünyanın hətta ən qüdrətli dövləti belə terrorizmlə təkbaşına mübarizə aparmaq iqtidarında deyil. Bu yalnız inteqrasiya məsələlərinə deyil, həm də təhlükəsizliyin təmin edilməsi və terrorizmə qarşı mübarizə kimi həlli vacib əhəmiyyətli məsələlərə aiddir. Öz qonşularından və ya müttəfiqlərindən və yaxud tərəfdaşlarından təcrid olunaraq terrorizmlə mübarizə aparmaq mümkün deyil.

1992-ci ildə Azərbaycan Respublikasında yaranmış hakimiyyət dəyişikliyi və o vaxtkı Azərbaycan hökumətinin yeritdiyi nöqsanlı xarici siyasət, eləcə də, Ermənistanın Azərbaycana təcavüzü və erməni lobbisinin fəaliyyəti, nəinki ABŞ-da Azərbaycana qarşı olan marağı və Azərbaycanın Qafqaz regionunda kəsb etdiyi əhəmiyyəti heçə endirdi, hətta Vaşinqtonun Respublikamıza qarşı ciddi sanksiyaların tətbiq edilməsinə gətirib çıxardı. Məhz bunun nəticəsində 1992-ci ilin axırlarında senator C.Kerrinin təşəbbüsü ilə ABŞ Konqresi Azərbaycana maddi yardım göstərilməsini qadağan edən “Azadlığı Müdafiə Aktı”na (“Rusiyada azadlığın, Avrasiyada demokratiyanın, açıq bazar müdafiəsi haqqında akt”) “907-ci düzəliş” adlı sənəd imzalandı.[41] Məhz bu səbəbdən 1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ABŞ-la münasibətlərin düzəldilməsi sahəsində mühüm addımlar atdı. Nəticədə “Azadlığı Müdafiə Aktı”na dair “907-ci düzəliş”ə baxmayaraq, ABŞ Azərbaycana yenidən yardım etdi.

Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizənin aparılması üçün Azərbaycan Respublikası terror təhdidi olan bölgələrə öz hərbi qüvvələrini də göndərmişdi. Belə ki, Azərbaycan Respublikasının Milli Məclisi 2002-ci il noyabr ayının 15-də bu barədə qərar qəbul

[41]Xəlilova, L. Azərbaycan – ABŞ münasibətlərinin inkişaf trayektoriyası [Elektron resurs] / – URL: https://a-r.az/az/article/10766.

etmişdi. Qərara əsasən Azərbaycan ordusunun dörd tağımının Türkiyə Cümhuriyyəti Silahı Qüvvələri taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsi nəzərdə tutulurdu.[42] Böyük əhəmiyyət daşıyan bu qərar həm də Azərbaycan Respublikasının terrorizmə qarşı birgə əməkdaşlıqda vacib tərəfdaş olduğunu, həm də dünya siyasətində Azərbaycanın rolunun artdığını sübut edirdi.[43]

**Üçüncü fəslin üçüncü yarımfəsli "Müasir mərhələdə Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəsinin əsas istiqamətləri"** adlanır.

Müasir mərhələdə Azərbaycan Respublikası özünün beynəlxalq terrorizmə qarşı mübarizəsini yeni dövrün tələblərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli formatlarda davam və inkişaf etdirməkdədir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycan Respublikasının təhlükəsizlik mühiti üçün təhdidlər sırasında qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması ilə yanaşı beynəlxalq terrorçuluq da vurğulanır və bu kimi təhdidlərin mövcudluğunun dövlət qarşısında müəyyən vəzifələr qoyduğu qeyd olunur.

Azərbaycan Respublikasının beynəlxalq terrora qarşı koalisiyada fəal iştirakı, bir tərəfdən beynəlxalq terror təşkilatlarının ölkəmizin ərazisindən istifadə etməsinə yol verilməməsi üzrə rejim tədbirlərinin sərtləşdirilməsini tələb edir. Digər tərəfdən Azərbaycan Respublikasında baş verən demokratik proseslər, xüsusilə də insan hüquqlarının müdafiəsi sahəsində tələblərin qeyd-şərtsiz yerinə yetirilməsi həm Azərbaycan Respublikasının, həm də xarici vətəndaşlarının hüquq və azadlıqlarına riayət olunması zərurətini şərtləndirir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan araşdırmaya yekun vurulmuş, tədqqatın əsas müddəaları ümumiləşdirilmiş və əldə edilən nəticələr təhlil edilmişdir.

---

[42]Qasımlı, M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) [2 hissədə]/ M.Qasımlı. – Bakı: Mütərcim, c.2. – 2015. – 664 s., – s.238.

[43]Qasımlı, M. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.Qasımlı, B.Muradova. – Bakı: Mütərcim, c.2. – 2018. – 680 s., – s.384.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1.Азербайджан в борьбе против международного терроризма // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, – 2011. № 2,– s.160-168

2.Liviya Dövlətində hərəkat və ABŞ-ın münasibəti // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, – 2011. № 5, – s. 174-180

3.«Аль-Каида» - террористическая организация № 1 // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, – 2014. № 3, – s. 199-204

4.Методы борьбы США с международным терроризмом // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, – 2014. № 4, –s. 129-134

5.Армянский терроризм //– Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, –2015– № 1, –s. 238-242

6.Антитеррористическая Операция США «Иракская свобода» и её результаты //–Ternopol: Vladimir Qnatyuk adına Ternopol Milli Pedaqoji Universiteti. Elmi qeydlər. Tarix seriyası. 2-ci buraxılış, 1-ci hissə.–2016 – s. 150-155

7.Терроризм на Ближнем Востоке и американская стратегия борьбы. Bakı Avrasiya Universiteti // – Bakı: Sivilizasiya,–cild 6, 2017. № 3, –s. 84-89

8.Сирийский кризис и американская стратегия борьбы с терроризмом на Ближнем Востоке // – Kiyev: T.Şevçenko adına Kiyev Milli Universiteti. Cinayət məhkəmə icraatı xəbərləri, –2017. № 3, –s. 109-114

9.Роль и деятельность ООН в разрешении вопроса об Иерусалиме // International Conference on the Question of Jerusalem,2017, 07.21

Dissertasiyanın müdafiəsi 26 05 2023 il tarixində saat 10[00] Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 04 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _____________
Kağızın formatı: A5
Həcm:      işarə
Tiraj: __________